Sentyabrın 23-də təhsil naziri Misir Mərdanov YUNİSEF-in Azərbaycandakı nümayəndəsinin müavini Cillian Uilkoks, Radoslav Rzehak, Munir Məmmədovla görüşüb.

Görüş zamanı müəssisələrin transformasiyası üzrə Baş Planın layihəsi müzakirə olunub.

Cillian Uilkoks Təhsil Nazirliyinin YUNİSEF-lə birgə respublikanın dövlət uşaq müəssisələrində həyata keçirdiyi sorğuları yüksək qiymətləndirib. Bildirilib ki, məhz bu qiymətləndirmənin nəticəsində YUNİSEF-in dəvət etdiyi 2 beynəlxalq ekspert və işçi qrupu qısa müddət ərzində müəssisələrin transformasiyası üzrə Baş Planın layihəsini hazirlayiblar.

Görüşdə, həmçinin qərara alınıb ki, Baş Plana əsaslanaraq hər bir müəssisə üçün fərdi transformasiya planı hazırlansın. Tərəflər eyni zamanda yekun sənədin təsdiq üçün Azərbaycan hökumətinə təqdim edilməsini də planlaşdırıblar.

YUNİSEF-in nümayəndəsi “Azərbaycan Respublikası dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De- institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006- 2015- ci illər)”nın icrası istiqamətində “Uşaq müdafiəsi” və “Sosial xidmətlər”in təşkili mexanizmlərinə Təhsil Nazirliyinin cəlb etdiyi ekspertlərin bu sahədə təcrübəli olduqlarını qeyd edərək, təklif olunan sistemin Azərbaycan üçün vacib olduğunu vurğulayıb.

Sonda qeyd olunan məsələlərlə bağlı ilin sonunadək YUNİSEF- lə Təhsil Nazirliyinin birgə konfrans keçirməsi qərara alınıb.